

Balaxan İspəroğlu

**Gəncliyindən otuz doqquzunacan yazdığı şeirləri kitabdan boylanan görmək sevdasına düşənəcən yaşlandı Atam. Mən də bu kitaba Ön söz yazacaq qədər böyüdüm və günlərin birində bacım Aytən atamın əlində gördüyü tanış müəllifin kitabından yıxılıb ağladı. Dumduru göz yaşından "Taleyimdən keçən atlı" nişanda ikinci bacımız doğuldu.**

**Hər gecə ortalığa töküb sayacaq pulumuz yox idi. Amma doxsanlardan - biz saymaq öyrənəndən bu yana evimizdə hər gecə açıb bağlayacağımız kağız qovluğumuz vardı. Əl-əl gəzməkdən pul kimi yumşalan vərəqlərə makina ilə döyülmüş şeirlər bizim var-dövlətimiz idi. Atam "Sahil də universitetə girib birtərəfli olsun... kitabı çıxaracam!" deyib, sonuncu fəndlə aldadardı şeirlərini və bizi. "Köksü girov dağlı xalçamız kimi" dinməzdi-danışmazdı şeirlər, xalçamız yad evdə həya edib özünə bürünən tək onlar da bürünərdi öz ətrinə, öz ruhuna.**

**"Hamıdan, hər şeydən oğurlanaraq" yazılan şeirlər alın yazısıdı atamın. İlk oxuyan anam olardı, ilk dinləyən biz. Bircə vurğu səhvindən üşənər, alıb özü oxuyardı. Ərşi-əladan alıb gətirdiyi harmoniyanı duymadığımız üçün acılayardı da hamımızı. Neyləsin, oynaya bilmir hər çalınana - heç əvvəllər də qol qaldırmayıb:**

**gördüyün bu əllər mənimki deyil
mənim əllərimin qış yuxusu var
mənim əllərimin qabarlarında
barıt qoxusu var qan qoxusu var
oynada bilmirəm hər çalınana
mənim əllərimin öz havası var
o hava çalınır içimdə mənim**

**Nənəmin "Balaxan tək oğlandır" sözü şəxsiyyət vəsiqəsi olub özünün də, şeirinin də. Buna görə hansısa şeiri külfət, xalq, millət haqqında olsa belə, sanki, yalquzaq ulartısıdır - həmdərdinin qulağını dəlib keçər.**

**Əslində, bu şeirləri xalı tək sərib hər ilməsinə bir ədəbi-nəzəri təşbeh qoşmaq, hər şeirin kürəyini dayadığı divardan da, söykəndiyi gecənin qaranlığından da söz açmaq olardı. Lakin...**

**Mən bilirəm və istərdim siz də biləsiniz ki, əlinizdəki kitab illər əvvəl bir nəfərin, sonra iki-üç nəfərin, indisə səkkiz nəfərin ən şirin yuxusunun çin çıxması, upuzun intizarının sona çatmasıdır. Bu kitab - etdiyi təmənnasız yaxşılıqların övladlarını "hər bəladan hifz eləyən" sipər kimi geri döndüyünü görüb ÖZ ALLAHına daima duaçı olan şairin heç vaxt dil açıb demədiyi və heç zaman da vaz keçmədiyi xəyalı, qəlbinin ən dərin qatında gizlədiyi təmənnasıdır.**

**Kitabın mübarək, Ata!**

***Sərraf Balaxan***

## BİR YETİM QAPISI GÖYƏRTDİ MƏNİ

Soyuldum sonuncu qabığımacan
uçuldum dizimə topuğumacan
özüm də bilmədim hansı vaxt
haçan
gözləri əllərdən
sözü dillərdən
özünə qayıdan özünə dönən
bir yetim qapısı göyərtdi məni

uçdum havasına bir dəli adın
bir dəli
sərsəri inada düşdüm
yaxşı ki
yaxşı ki günün birində
gözləri əllərdə
sözü dillərdə
yetimləşən qapımla
bir yetimin qapısından ötüşdüm
o qapı
o qapı göyərtdi məni.

## ÖZ HAVAM ÇALINIR İÇİMDƏ MƏNİM

Oynaya bilmirəm hər çalınana
boyum bərabəri boyum uzunu
öz havam çalınır içimdə mənim

gördüyün bu əllər mənimki deyil
mənim əllərimin qış yuxusu var
mənim əllərimin qabarlarında
barıt qoxusu var qan qoxusu var
oynada bilmirəm hər çalınana
mənim əllərimin öz havası var
o hava çalınır içimdə mənim

yollar ayağıma dar gəlir yaman
beləcə sonadək getməyim çətin
yollar var köklənib sarı sim üstə
mənim bu simlərdə ötməyim çətin
mənim yollarımın öz havası var
mənim yollarımın ayaqlarımın
gəlin həyası var qız həyası var

gördüyün bu baş da mənimki deyil
uyub çoxlarının felinə indi
mənim öz başımın havası başqa
çoxdan üz döndərib öz Tanrısından
gətirmir adını dilinə indi
oynamaq istəmir hər çalınana
boyum bərabəri boyum uzunu
öz havam çalınır içimdə mənim.

## MƏNƏM

Mənim yuxum quş yuxusu
bu yuxunu yozan mənəm
gözlü baxır kor aparır
aralıqda gəzən mənəm

əkən kimdi biçən kimdi
birəm kimdi üçəm kimdi
yeyən kimdi içən kimdi
od üstündə qazan mənəm

qurd çalır qoyun oynayır
kosanın toyun oynayır
hərə bir oyun oynayır
ortalıqda ozan mənəm.

## BİR AZDAN QƏMLİ GECƏDİ

Taleyimdən keçən atlı
atının yaşı neçədi
yolunun qarası bəlli
yolunun ağı necədi

haqq niyyətim haqq diləyim
yorğun yollar döyənəyim
dostlara səngər ürəyim
indi ünvansız küçədi

bir şey qalmayıb sona da
nə çəkdim şükür ona da
günəş qürub edir daha
bir azdan qəmli gecədi.

## BARIŞIĞI ƏYDİ MƏNİ

Güllə atdım çöl quşuna
batdım qada-qarğışına
düşdüm dünyanın qışına
qar-yağışı döydü məni

gözəl gördüm sonalandı
can verəndi can alandı
evli bilib havalandı
yır-yığışı söydü məni

nə tez Allah yaşa doldum
ömrü-günü hədər oldum
hardan-hara quyulandım
barışığı əydi məni.

## MƏN SƏNDƏN NECƏ DOYUM

*Anam Məryəmə*

Əllərin qabar-qabar
qanı gözümə damar
çətində yolum azsam
əllərin gəlib tapar

ayağın cadar-cadar
çatı gözümə qonar
bu yol ömür yolusa
hanı düz hanı hamar

ürəyin oyum-oyum
yarım gözümə qoyum
sən dünyadan doymusan
mən səndən necə doyum?

## BİR ŞAMA SARI

Başımın üstündən atlılar keçir
keçir
qanadlılar keçir
dolaşır havada ayaq izləri
mən də
qanadlanıb uçuram Tanrım
uçuram
bir qərib axşama sarı
bir qərib şairin gözlərindəki
yanıb şölələnən
bir şama sarı.

## KÖVRƏLTDİN MƏNİ

Kövrəltdin məni
dost evində sızıldayan göynəyən
neçə vaxtdı ilmələri qəm yeyən
gözləri yollarda qulağı səsdə
köksü girov dağlı xalçamız kimi

kövrəltdin məni
diksinib yad evdə doğma bir səsə
düşüb min arzuya minbir həvəsə
vədəsiz bəy çıxan ağ duvaq salan
aldanıb atılan alçamız kimi

kövrəltdin məni
qadınsız bir evin sərxoşluğundan
divar nazikliyi daş boşluğundan
sirr sözü dillərdə bayrağa dönən
düyünü açılmış boğçamız kimi
kövrəltdin məni
qönçə çağı çiçək çağı gül çağı
arzuları ürəyində pas atan
ildə bircə dəfə bayramqabağı
kürkünə gün dəyən xalçamız kimi.

## DE NİYƏ GƏLMƏDİN

Söykənib gecənin qaranlığına
düşüb həsrətinin burulğanına
boğula-boğula gözlədim səni
de niyə gəlmədin de niyə zalım

gözümə görünən at kölgəsindən
çılpaq ağacların lüt kölgəsindən
pişik kölgəsindən it kölgəsindən
yıxıla-yıxıla gözlədim səni
de niyə gəlmədin de niyə zalım

döydüm qapınızı baxışlarımla
yuxuna daş atdım qarğışlarımla
dalaşdım bəxtimlə naxışlarımla
içimdən dağıla-dağıla hər an
gözlədim o ki var gözlədim səni
de niyə gəlmədin de niyə zalım

tanrı məqamıydı bəlkə bu gecə
heç səni bu qədər istəməmişdim
heç sənin yolunu bu axşamkı tək
gözlərim dolusu gözləməmişdim
belimdən qırıla-qırıla zalım
xırda səs-səmirdən xoflanıb ölüb
sonradan dirilə-dirilə zalım
gözlədim təpədən-dırnağa qədər
de niyə gəlmədin de niyə zalım

bəlkə də bu gecə taleyimizdə
bütün gecələrə son olasıydı
bəlkə bundan sonra gələn gecələr
elə bu gecədən doğulasıydı
de niyə gəlmədin de niyə zalım
gəlib əllərini köksümə sıxıb
danışıb-gülmədin de niyə zalım?